

“Azərbaycan çox zəngin ölkədir. Bizim böyük təbii resurslarımız var. Ancaq bizim ən böyük resursumuz insanlarımızın biliyidir, savadıdır. Biz öz imkanlarımızdan səmərəli istifadə edərək, maddi kapitalı insan kapitalına çevirməliyik və bunu edirik”.

**İlham Əliyev**

Azərbaycan Respublikasının Prezidenti

2008/2009-cu TƏDRİS İLİNDƏ
AZƏRBAYCAN RESPUBLİKASININ ALİ MƏKTƏBLƏRİNƏ DAXİL OLMUŞ TƏLƏBƏLƏRƏ
PREZİDENT TƏQAÜDÜNÜN VERİLMƏSİ HAQQINDA
AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN

# SƏRƏNCAMI

Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının ali məktəb tələbələri üçün Prezident təqaüdünün təsis edilməsi haqqında" 3 sentyabr 2001-ci il tarixli 564 nömrəli fərmanına uyğun olaraq **qərara alıram**:

1. 2008/2009-cu tədris ilində tələbə qəbulu imtahanlarında ixtisas qrupları üzrə ən yüksək nəticə göstərmiş və Azərbaycan Respublikasının ali məktəblərinə daxil olmuş aşağıdakı tələbələrə Prezident təqaüdü verilsin:

Abbaslı Elvin Şamrud oğlu
Abbasova İlahə Qoşqar qızı
Abberin Nüşabə Ramiz qızı
Abdullayev Elçin Ələkbər oğlu
Abdullayev Zaur İmran oğlu
Abdullayeva Ləman Şamil qızı
Abdurahmanov Elvin Eldəniz oğlu
Ağai Elçin Ələddin oğlu
Allahverdiyev Rəşad Elman oğlu
Allahverdiyeva Tahirə Ceyhun qızı
Babayev Kənan Mehdi oğlu
Babayev Ramil Soltan oğlu
Babayev Rüfət Yaşar oğlu
Babayev Tural Atakişi oğlu
Bağışov Damət Bağış oğlu
Beydullayev Rahib Ramiz oğlu
Cabbarlı Leyli Rasim qızı
Cəbiyev Əvəz Niyazi oğlu
Cəbiyeva Leyla Nadir qızı
Dadaşov Elvin Vaqif oğlu
Daşdəmirova Günay Fəxrəddin qızı
Əhmədli Nərmin İslam qızı
Əhmədov Ceyhun Sərdar oğlu
Əhmədov Nurlan Cəsarət oğlu
Əliyev Ağayar Eldar oğlu
Əliyev Elnur Adil oğlu
Əliyev Emil Məmmədhüseyn oğlu
Əliyev Emil Səməndər oğlu
Əliyev Əli Ehtiram oğlu
Əliyev Orxan Ərşad oğlu
Əliyev Zülfüqar Tofiq oğlu
Əliyeva Fatimə Natiq qızı
Əliyeva Gülər Balahüseyn qızı
Əlizadə Xəlil Firudin oğlu
Əmmayev Təbriz Bilal oğlu
Əskərli Nigar İntiqam qızı
Fətəlizadə Kamal Eldar oğlu
Hacıyeva Sevinc Vaqif qızı
Həmidov Müşfiq Alik oğlu
Həsənli Ceyhun Sabir oğlu
Həsənli Ceyhun Yaqub oğlu
Həsənov Şahin İlham oğlu
Həsənova Gültəkin Akif qızı
Həsənova Şəbnəm Rəhbər qızı
Həsənova Təranə Hidayət qızı
Hümmətzadə Tural Ramazan oğlu
Hüseynov Kənan Qurban oğlu
Xəlilov Nicat Səlam oğlu
İbişova Bənövşə Balay qızı
İbrahimova Mehriban Ələkbər qızı
İmranlı Nuran Rafail oğlu
İsmayılov Məhərrəm Məhəmməd oğlu
İsmayılzadə Cavid Ramiz oğlu
İsrəfilzadə Fateh Məftun oğlu
Kərəmov Anar Əbülfərz oğlu
Qaçaylı Leyla Nofəl qızı
Qasımlı Ülkər Ələsgər qızı
Qasımov Kamran Nizami oğlu
Qəhrəmanlı Şirin Cümşüd oğlu
Quliyev Xəyyam Mübariz oğlu
Quliyev Müşfiq Baxış oğlu
Quliyeva Günel Nazim qızı
Qurbanlı Əhməd Xamiz oğlu
Qurbanova Güləsər Kamal qızı
Mehrəliyev Vüsal Bəhram oğlu
Məmiyev Vüsal İsbat oğlu
Məmmədxanova Rumiyə Mahir qızı
Məmmədli Orxan Elçin oğlu
Məmmədov Amin Zakir oğlu
Məmmədov Fərid Faiq oğlu
Məmmədov Qənbər İlyas oğlu
Məmmədov Murad İsmayıl oğlu
Məmmədov Tural Ələddin oğlu
Məmmədova Aygül Nəsir qızı
Məmmədova Südabə İlham qızı
Məmmədova Şəlalə Rza qızı
Məmmədzadə Gültən Nəcməddin qızı
Məmmədzadə Mətanət Mübariz qızı
Mirzəli Elvin Fikrət oğlu
Mirzəyev Rəşad Rafayıl oğlu
Mustafazadə Çinarə Yaqub qızı
Namazov Rüfət Asif oğlu
Nəcəfov Şəmsur Mənsur oğlu
Nəzirov Tural Əfqan oğlu
Orucəliyeva Nubar Ramiz qızı
Paşazadə Elgün Ramiz oğlu
Rəsulov Sənan Sahib oğlu
Rüstəmli Vüqar Oqtay oğlu
Salmanlı Faris Gündüz oğlu
Sultanlı Dilbər Vidadi qızı
Şahverənova Arzu Əlövsət qızı
Şəfəqqətov Taleh Nadir oğlu
Şirinova Səmra Mabud qızı
Şükürov Şahmar Məmmədxan oğlu
Şükürova Gülər Asif qızı
Şükürzadə Azər Məjlum oğlu
Tağızadə Murad Allahyar oğlu
Talıbov Elmar Etibar oğlu
Vəliyev Kamran Yaqub oğlu
Yaqubov Hilal Hikmət oğlu
Yunusov Eldəniz Taleh oğlu
Zodorova Aytən Məhəmməd qızı

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.
3. Bu sərəncam dərc edildiyi gündən qüvvəyə minir.

**İLHAM ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 8 sentyabr 2008-ci il**

# AZƏRBAYCAN RESPUBLİKASININ ALİ MƏKTƏB TƏLƏBƏLƏRİ ÜÇÜN PREZİDENT TƏQAÜDÜNÜN ARTIRILMASI HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN
## FƏRMANI

Azərbaycan Respublikasında təhsil sahəsində yüksək nəticələr əldə etmiş tələbələrə dövlət qayğısını gücləndirmək və onların təhsilə olan həvəsini artırmaq məqsədi ilə **qərara alıram**:

1. Azərbaycan Respublikasının ali məktəblərinə qəbul imtahanlarında ən yüksək nəticə göstərmiş tələbələr üçün Prezident təqaüdünün məbləği 50 faiz artırılaraq 150 (yüz əlli) manat müəyyən edilsin.

2. "Azərbaycan Respublikasının ali məktəb tələbələri üçün Prezident təqaüdünün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 3 sentyabr tarixli 564 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001-ci il, № 9, maddə 579; 2004-cü il, № 9, maddə 684; 2006-cı il, № 12, maddə 1056) 1-ci bəndində "500.000 (beş yüz min) manat" sözləri "150 (yüz əlli) manat" sözləri ilə əvəz edilsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

4. Bu Fərman 2008-ci il sentyabrın 1-dən qüvvəyə minir.

**İLHAM ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 10 sentyabr 2008-ci il**

# Yüksək biliyə verilən mükafatlar

## QƏBUL İMTAHANINDA 700 BAL TOPLAMIŞ SUMQAYITLI MƏKTƏB MƏZUNUNA AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ADINDAN YENİ MƏNZİLİN ORDERİ TƏQDİM EDİLMİŞDİR

Yeni dərs ili ərəfəsində Sumqayıt Şəhər İcra Hakimiyyətində respublikanın ali məktəblərinə qəbul imtahanlarında 600-dən yuxarı bal toplamış tələbələrlə görüş keçirilmiş və onların hər birinə pul mükafatı təqdim edilmişdir. Qəbul imtahanında rekord nəticə - 700 bal toplayaraq, Azərbaycan Prezidenti yanında Dövlət İdarəçiliyi Akademiyasının inzibati idarəetmə fakültəsinə qəbul olmuş Elvin Dadaşova isə ölkə başçısı adından yeni binada ümumi sahəsi 93 kvadrat-metr olan mənzilin açarları və orderi təqdim edilmişdir. Bu, Sumqayıt gimnaziyası məzununun yataqxanada yaşayan ailəsinin yaşayış şəraitinin yaxşılaşdırılmasına çox dəyərli bir töhfə olmuşdur.

Qeyd olunmuşdur ki, Sumqayıt məktəblərinin məzunları ali təhsil müəssisələrinə daxil olarkən həmişə uğurlu nəticələr nümayiş etdirirlər. Bu il də nailiyyətlər yüksək olmuşdur. 3869 abituriyentdən 1359-u imtahanlardan uğurla çıxaraq, tələbə adına layiq görülmüşdür. Əgər 2003-cü ildə yalnız 28 abituriyent 600-dən yuxarı bal toplamışdısa, bu il onların sayı 142 nəfərə çatmışdır. Prezident təqaüdçülərinin sayı da xeyli artaraq 42 nəfər olmuşdur. Sumqayıtın 3 məktəbi "İlin ən yaxşı ümumtəhsil məktəbi" müsabiqəsinin qalibi olmuş, dörd müəllim isə "İlin ən yaxşı müəllimi" adına layiq görülmüşdür.

Şəhər təhsil şöbəsinin nümayəndələri, məktəb direktorları, tələbələr çıxış edərək, təhsil sisteminin inkişafı üçün əlverişli şəraitin yaradılmasına görə ölkə rəhbərliyinə səmimi minnətdarlıqlarını bildirmişlər.

**Tələbə Qəbulu üzrə Dövlət Komissiyası ənənəvi olaraq ali məktəblərə 600-dən yuxarı balla qəbul olan gənclərin ictimaiyyətə tanıdılması, təcrübəsinin öyrənilməsi və yayılması məqsədilə bir sıra tədbirlər həyata keçirmişdir. "Abituriyent" jurnalının bu sayı da bütünlüklə onlara həsr edilmişdir. Aşağıda TQDK-nın keçirdiyi tədbirlərdə iştirak edən, anket sorğusuna cavab verən, özü haqqında informasiya və şəklini təqdim edən hər bir gəncin topladığı bal, qəbul olduğu ixtisas, bitirdiyi məktəb haqqında məlumatlar dərc olunur.**

**Builki qəbul imtahanlarında 6 nəfər gənc rekord nəticə - 700 bal toplamışdır. Burada ilk öncə həmin gənclərlə aparılmış müsahibələri təqdim edirik.**



# "Qəbul imtahanında rekord nəticəni əzmlə, fasiləsiz çalışmağım sayəsində əldə etmişəm"

*Emil Əliyev:* "Bahalı repetitor yanına getmədən fərdi hazırlaşmaqla maksimum nəticə göstərməyin mümkünlüyünü sübut etdim"

Qəbul imtahanında 700 bal toplayan gənclərdən biri Emil Əliyevdir. O, Bakı Dövlət Universitetinin beynəlxalq münasibətlər fakültəsinə daxil olub. Naxçıvan Türk Liseyinin məzunudur. Atası müəllim, anası isə həkimdir.

***- Emil, qəbul imtahanında rekord nəticə göstərməyinizi nə ilə izah edə bilərsiniz?***

- Qəbul imtahanında rekord nəticəni əzmlə, fasiləsiz çalışmağım sayəsində əldə etmişəm. Müvəffəqiyyətimin başlıca amillərindən biri imtahana sistemli hazırlaşmağımdır. Həm dərslərimə, həm də hazırlığa kifayət qədər ciddi yanaşıb bütün diqqətimi hazırlıq prosesinə yönəltdim. Bir il ərzində böyük əzmlə çalışdım, bütün vaxtımı hazırlığa sərf etdim. Nəticədə isə istəyimə nail oldum.

***- İmtahan zamanı intellektual hazırlıq vacib şərtdir. Bəs psixoloji hazırlığın rolu barədə nə deyə bilərsiniz?***

- İmtahan öncəsi psixoloji hazırlıq çox vacib şərtdir. Psixoloji baxımdan hazır olmaq imtahan zamanı öz müsbət effektini verir. Hər bir abituriyent gərək özü özünün psixoloqu olsun. Özünü sakitləşdirməyi bacarsın və daxilində həyəcandan yaranan gərginliyi aradan qaldıra bilsin. Əks təqdirdə həyəcandan özünü itirə və heç bir suala cavab yaza bilməz.

***- Bu gün cəmiyyətdə repetitor yanına getmədən yüksək bal toplamağın qeyri-mümkün olduğuna dair fikirlər səslənir. Hətta, bəziləri iddia edir ki, ümumiyyətlə, repetitorla hazırlaşmadan ali məktəbə daxil olmaq mümkün deyil. Sizcə, repetitor yanına getmədən yüksək bal toplamaq mümkündür?***

- Repetitor müəyyən hazırlıq səviyyəsi və müstəqil çalışmaq bacarığı olan abituriyentin bilik səviyyəsini artırmır və əlavə də heç bir şey öyrətmir. O, sadəcə abituriyentə istiqamət verir. Ümumiyyətlə, repetitor köməyi olmadan yüksək nəticə göstərməyin qeyri- mümkün olduğu barədə deyilənlərlə razı deyiləm. Mən bahalı repetitor yanına getmədən fərdi hazırlaşmaqla maksimum nəticə göstərməyin mümkünlüyünü sübut etdim. Təhsil aldığım Naxçıvan Türk Liseyində bütün fənlər şagirdlərə yüksəkixtisaslı müəllimlər tərəfindən tədris olunur. Buna görə də repetitor yanına getməyə ehtiyac olmadı.

***-Yəqin razılaşarsınız ki, bilik yarışının öncülü olmağın məsuliyyəti sevincindən daha çoxdur?***

- Əlbəttə. Deyirlər zirvəyə çıxmaq əsas deyil, zirvədə qalmaq əsasdır. İmtahanda göstərdiyim uğurlu nəticənin davamı olaraq özümu əlaçı və nümunəvi universitet tələbəsi kimi tanıtmaq niyyətindəyəm.

***-Test üsulunun tətbiqinə münasibətiniz necədir?***

- Qəbul imthanlarında uzun illərdən bəri tətbiq olunan test üsulu mənim çox ürəyimcədir. Hazırlıqlı və savadlı abituriyentlər imtahan zamanı bilik səviyyələrini nümayiş etdirir və istənilən nəticəni əldə edə bilirlər. Test üsulu ilə obyektivlik gözlənilir, cavablara heç kəs müdaxilə etmir. Bu da çox müsbət haldır.

***- Qəbul zamanı biliyin yeganə meyar olduğunun canlı şahidi kimi gələcək abituriyentlərə tövsiyələriniz?***

- Ali məktəb tələbəsi adını qazanmaq üçün abituriyentdə, hər şeydən öncə, ürəkdən istək və inam olmalıdır. İstək, inam olan zaman məqsədə çatmaq uğrunda aparılan gərgin mübarizə insana mənəvi qüvvət verir. Əzmlə, yüksək səviyyədə hazırlaşmaq mütləq müsbət nəticəsini göstərir. İnsan istəsə mümkünsüz görünən hər şeyi mümkün edə bilər. Bunun üçün istəklə bərabər, həm də güclü iradə lazımdır.



# “Məqsədinə doğru inamla irəliləyən abituriyent mütləq uğur əldə edir”

*Elvin Dadaşov:* “İmtahanda yüksək nəticəyə nail olmaq üçün, ilk növbədə orta məktəbdə gündəlik dərslərə ciddi hazırlaşmaq və oxunanları mütəmadi təkrar etmək lazımdır”

Elvin Dadaşov Sumqayıt şəhərində fəaliyyət göstərən təbiət elmləri təmayüllü gimnaziyanın məzunudur. Dövlət İdarəçilik Akademiyasının inzibati idarəetmə fakültəsinə daxil olub və göstərdiyi yüksək nəticəyə görə Prezident təqaüdünə layiq görülüb. Bununla bərabər yataqxanada məskunlaşan E. Dadaşovun ailəsinə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən Sumqayıt şəhərinin mərkəzində yeni inşa edilən yaşayış binasında ikiotaqlı mənzil hədiyyə edilib. Təqaüdçünün atası ictimai iaşə xidməti sahəsində çalışır, anası isə evdar qadındır.

***- Elvin, 700 bal toplamağınıza daha çox nə kömək etdi: yüksək səviyyədə hazırlaşmağınız, yoxsa fitri istedadınız?***

- Yüksək səviyyədə hazırlaşmağım və güclü məntiqim imtahan zamanı köməyimə çatdı. Bir də mən imtahana psixoloji cəhətdən tam hazır idim. Yüksək bal toplayıb arzusunda olduğum ali məktəbə daxil olacağıma və Prezident təqaüdünə layiq görüləcəyimə inanırdım. Ancaq məhz rekord nəticəyə – 700 bal toplayacağıma yüz faiz əmin deyildim. Bir il özümü, demək olar ki, bütünlüklə oxumağa həsr etdim. Bu müddət ərzində ancaq proqram üzrə hazırlaşdım və əlavə heç bir işlə məşğul olmadım. Özümü əlavə məşğuliyyət və əyləncələrdən təcrid etdim. Gimnaziyaya gedib dərslərdə iştirak edir və məktəbdən qayıdandan sonra yenidən hazırlaşırdım. Çox zəhmət çəkdim və nə yaxşı ki, zəhmətim hədər getmədi. İmtahanda yüksək nəticə göstərəcəyimə əmin olsam da, ancaq buna görə möhtərəm Prezidentimiz tərəfindən evlə mükafatlandırılmağım mənim üçün gözlənilməz oldu.

***- Sizcə, imtahanda ən yüksək nəticə əldə etmək üçün abituriyent hansı keyfiyyətlərə malik olmalıdır?***

- Yüksək nəticəyə nail olmaq üçün, ilk növbədə, orta məktəbdə gündəlik dərslərə ciddi hazırlaşmaq və oxunanları mütəmadi təkrar etmək lazımdır. Dərs oxuyarkən səmərəli yol seçmək gərəkdir. Həddən artıq çox və ya həddən artıq az oxumağın səmərəsi elə də yüksək ola bilməz. İmtahana hazırlaşan abituriyetdə özünə və biliyinə güclü inamın olması vacib şərtdir. Psixoloji hazırlıq, dözüm və iradə mütləqdir. Məqsədinə doğru inamla irəliləyən abituriyentin uğur əldə etməsinə şübhə yoxdur.

***- Tarixdən məlumdur ki, hətta böyük sərkərdələr belə imtahan verməkdən ehtiyat ediblər. Maraqlıdır, Siz imtahan prosesində hansı hisslər keçirirdiniz?***

- İmtahan öncəsi bir balaca həyəcanlı idim. Ancaq imtahana start verilən an bu hissi özümdən uzaqlaşdırdım. Əslində hər bir abituriyentin imtahan öncəsi həyəcan keçirməsi normaldır. Ancaq mümkün qədər bu hissi özündən uzaqlaşdırmalısan. Əks təqdirdə sualların düzgün cavablarını bildiyin halda həyəcandan onları cavablandıra bilməzsən.

***- Sınaq imtahanlarında iştirak edirdinizmi?***

- Bəli, iştirak edirdim.

***- Repetitor xidmətindən istifadəyə necə baxırsınız?***

- Çox yaxşı. Repetitor insanda məsuliyyət hissi yaradır. Mən də hazırlaşdığım müddətdə repetitor yanına getmişəm. Əgər repetitor köməyindən istifadə etməsəydim, maksimum 600-650 bal toplayardım. İmtahana hazırlıq zamanı abituriyentə düzgün istiqamət verən, onun peşəkar səviyyədə hazırlaşmasına yardımçı olan repetitorun rolunu, zəhmətini qiymətləndirməmək ciddi yanlışlıq, hətta deyərdim ki, insafsızlıq olardı.

***- Ali məktəblərə qəbulda yüksək nəticə göstərən tələbələrə Prezident təqaüdünün verilməsi istedadlı gənclərə dövlət qayğısının parlaq nümunəsidir. Prezident təqaüdcüsü kimi dövlətin bu etimadını doğrultmaq üçün gələcək planlarınız barədə nə deyə bilərsiniz?***

- Azərbaycanda elmə, təhsilə dövlət tərəfindən xüsusi qayğı göstərilir. Hər il dövlət vəsaiti hesabına onlarla məktəb inşa edilib istifadəyə verilir. Təhsillərini xaricdə almaq arzusunda olan tələbələrə şərait yaradılır. Qəbul imtahanlarında ən yüksək nəticə göstərən abituriyentlərə Prezident təqaüdü verilir. Bir sözlə, hazırda ölkədə təhsil sahəsinə çox önəm verilir. Şəxsən mən imtahanda göstərdiyim nəticəyə görə Prezident təqaüdünə layiq görülməklə bərabər, həm də mənzillə mükafatlandırılmışam. Buna görə möhtərəm Prezidentimiz İlham Əliyev cənablarına minnətdaram. Mənə göstərilən etimadı doğrultmaq üçün təhsilimi nüfuzlu xarici ölkə universitetlərindən birində davam etdirməyi düşünürəm. Vətənini sevən bir insan kimi Azərbaycan dövlətinə layiq yüksəkixtisaslı mütəxəssis olmaq ən böyük arzumdur.



# "İmtahanlara normal hazırlaşmağım üçün valideynlərim mənə hər cür şərait yaratmışdı"

*Rüfət Babayev:* "Əldə etdiyim yüksək nəticəyə görə mən həm müəllimlərimə, həm də ailəmə borcluyam"

Rüfət Babayev 700 bal toplayaraq Qafqaz Universitetinin avtomatlaşdırılmış sistemlərin və hesablama texnikasının proqram təminatı ixtisasına daxil olub. Nizami rayonunda yerləşən 70 nömrəli pilot məktəb – liseyi bitirib. Atası Dəniz Gəmiçiliyi Registrində mühəndis - inspektor vəzifəsində çalışır. Anası isə evdar qadındır.

***- Rüfət, qəbul imtahanına necə hazırlaşırdınız?***

Mən ali məktəbə hazırlıq kursu çərçivəsində hazırlaşmışam. İki il "Araz" hazırlıq kursuna getmişəm. Kursa getməzdən əvvəl sınaq imtahanlarında 400 bal toplayırdım. Amma kurs xətti ilə hazırlaşandan sonra sınaq imtahanlarında daha yüksək nəticə göstərməyə başladım. Ancaq mənim fikrimcə, bilik səviyyəsi aşağı olan abituriyentlərin ayrıca repetitor yanına getməsi məsləhətdir.

***- Sizcə, imtahanlara sərbəst surətdə hazırlaşmaqla yüksək nəticəyə nail olmaq mümkündürmü?***

- Məncə yox. Qəbul imtahanlarına kurs və ya repetitor vasitəsi ilə hazırlaşanda abituriyent məşğələ günlərini dəqiq müəyyən edir. Bütün fənlərə sistemli şəkildə hazırlaşır. Müəllimlər tərəfindən verilən tapşırıqları həll edir və materialları öyrənir. Ancaq fərdi qaydada hazırlaşanda abituriyent düzgün vaxt bölgüsü aparmadığından nəzərdə tutulan proqramı tam oxuyub başa çatdıra bilmir və öyrəndiklərini təkrar etmək üçün vaxtı da qalmır. Bu səbəbdən də yüksək nəticə əldə etmək arzusunda olan hər bir abituriyentin imtahanlara kurs və ya repetitor vasitəsilə hazırlaşması daha məqsədəuyğundur.

***- Valideynlərinizin Sizin ali məktəbə daxil olmağınızda rolu nədən ibarət olub?***

- Yüksək nəticə ilə ali məktəbə daxil olmağımda ailəmin rolu böyükdür. Xüsusilə də anamın. İmtahanlara normal hazırlaşmağım üçün valideynlərim mənə hər cür şərait yaratmışdı. Hazırlıq zamanı lazım olan bütün vəsaitlərlə, dərslik, TQDK-nın hazırladığı test vəsaitləri və proqramlarla təmin etmişdi. Valideynlərim mənə həm də mənəvi dayaq olublar. Əldə etdiyim bu yüksək nəticəyə görə mən həm müəllimlərimə, həm də ailəmə borcluyam.

***- Rüfət, niyə seçim zamanı dövlət ali məktəblərinə deyil, özəl universitetə üstünlük verdiniz?***

- Özəl universiteti dövlət ali məktəblərindən üstün tutmağıma səbəb daxil olduğum Qafqaz Universitetində təhsilin səviyyəsinin daha yüksək olmasıdır. Burada tələbələrin beynəlxalq standartlara uyğun səviyyədə təhsil alması, ikinci və üçüncü kursdan sonra təhsillərini xaricdə davam etdirməsi üçün lazımi şərait var. Üstəlik bu universitetdə ingilis dili daha yüksək səviyyədə tədris edilir. Burada seçdiyim ixtisas üzrə bir peşəkar kimi yetişəcəyimə əminəm. Mən ali təhsil almaq üçün özəl ali təhsil müəssisəsini seçməyimə peşman deyiləm.

***- Yəqin ki, seçdiyiniz sahədə yüksəkixtisaslı mütəxəssis olmaq istəyirsiniz? Siz bu məsələdə hansı amili rəhbər tutursunuz?***

- İndiki dövr kompyuter dövrüdür. Mənim də ixisasım kompyuter mühəndisliyidir. İxtisasım üzrə dərin bilgilər əldə etmək istəyirəm. Gələcəkdə isə universitet çərçivəsində yaradılan şəraitdən istifadə edib təhsilimi nüfuzlu xarici ali təhsil müəssisələrindən birində davam etdirməyi nəzərdə tuturam. Peşəkar bir kompyuter mütəxəssisi kimi yetişməyi qarşıma məqsəd qoymuşam. Potensialıma və bilik səviyyəmə də güvənirəm. İnanıram ki, peşəkar bir kompyuter mütəxəssisi kimi cəmiyyətdə öz yerimi tutacağam.



# "İmtahana hazırlaşan abituriyent üçün vaxt qızıldan qiymətlidir"

*Rəşad Mirzəyev:* "Vaxt bölgüsünü düzgün aparmaq imtahanda uğur qazanmağın vacib şərtlərindən biridir"

Bu il maksimum nəticəyə imza ataraq 700 bal toplayan abituriyentlərdən biri də Rəşad Mirzəyevdir. Nərimanov rayonu 39 saylı orta məktəbin məzunu olan R.Mirzəyev Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının beynəlxalq münasibətlər fakültəsinə qəbul olub. Atası Nəsimi rayonu üzrə Narkotiklərlə Mübarizə Bölməsinin rəisi vəzifəsində çalışır, anası isə elmi-tədqiqat işi ilə məşğul olur.

***- Rəşad, müdriklər vaxtın qızıldan qiymətli olduğunu deyiblər. Hazırlıq zamanı və imtahanın özündə vaxt bölgüsünü necə reallaşdırdınız?***

- Doğrudan da, imtahana hazırlaşan abituriyent üçün vaxt qızıldan qiymətli olur. Adam hər dəqiqəsinin qədrini bilməyə və hazırlıq üçün əlavə nəsə yeni gərəkli material oxumağa çalışır. Nə qədər yorulsa belə qəbul imtahanına az vaxt qaldığını düşünüb hazırlıq prosesindən ayrılmaq istəmir. Mənim fikrimcə, abituriyentin vaxt bölgüsünü düzgün aparması vacib şərtlərindən biridir. O, hazırlaşdığı fənlərin hər birinə müvafiq vaxt ayırmalıdır. Hazırlıq zamanı vaxtı düzgün böldüyüm üçün tam şəkildə hazırlaşmağa, öyrəndiklərimi bir daha təkrar etməyə kifayət qədər vaxtım oldu. İmtahanda da vaxt bölgüsünü düzgün apardım və buna görə başqalarından fərqli olaraq imtahandan bir qədər tez çıxdım.

***- Elə abituriyentlər var ki, çox bilikli olduqlarını iddia edirlər, lakin imtahan vaxtı həyəcan, psixoloji gərginlik keçirdiklərini deyir və istənilən nəticəni əldə edə bilmirlər. Bunun səbəbini nədə görürsünüz?***

- Qəbul imtahanına yüksək səviyyədə hazırlaşdığım üçün məndə imtahandan əvvəl həyəcan hissi cüzi idi. Düzdür, imtahan zalına daxil olanda bir qədər həyəcanlandım, ancaq az müddətə bu hissi özümdən kənarlaşdırdım. Çünki həyəcanlanan zaman insanın bildikləri yaddaşından sanki silinir, bu səbəbdən də suallara cavab verə bilmir. Məncə, abituriyentin hazırlıq səviyyəsi yüksək olanda və biliyinə güvənəndə o qədər də həyəcanlı olmur. Əksinə imtahan suallarının düzgün cavabını bilməyəndə onun həyəcanı ikiqat artır.

***- İmtahanda sizi qane etməyən məqamlar oldumu?***

- Qəbul imtahanı çox yüksək səviyyədə təşkil olunmuşdu. Nəzarətçilər də onlara tapşırılan işi yaxşı yerinə yetirirdilər. İmtahan prosesində heç bir köcürmə halı ilə qarşılaşmadım. Suallar o qədər də çətin deyildi, bütünlüklə orta məktəb dərsliklərini əhatə edirdi. Mən imtahanın keçirilmə səviyyəsindən razı qaldım.

***- Rəşad, ali təhsil almaqda məqsədiniz nədir?***

- Düşünürəm ki, yüksək nəticə ilə ali məktəbə qəbul olmaqla məni gözləyən sınaqların hələ yalnız birindən uğurla keçmişəm. Özümü hələ istədiyim nəticəyə çatmış hesab etmirəm. Əsas məqsədim yüksək səviyyədə ali təhsil almaq, vətənimə, dövlətimə yararlı bir mütəxəssis kimi yetişməkdir. Gələcəkdə təhsilimi İngiltərənin ali təhsil müəssisələrindən birində davam etdirməyi düşünürəm. Dövrün tələbləri səviyyəsində təhsil alaraq cəmiyyətdə layiqli yer tutmaq, dövlətimə xidmət etmək istəyirəm.

***- Gələcək abituriyentlərə nə arzulayardınız?***

- Bu gün abituriyentlərin qəbul imtahanlarına səmərəli hazırlaşması üçün hər cür şərait yaradılıb. Elmi-metodiki materiallar – test tapşırıqları, elmi-statistik təhlillər, sınaq imtahanları, elektron vəsaitlər və sair. Bütün bunlar şagirdlərin elmi biliklərə daha dərindən yiyələnməsinə imkan yaradır. İmtahana hazırlaşan hər bir abituriyent bu imkandan maksimum istifadə etməlidir. Bunlara əməl edən hər bir abituriyent qəbul imtahanında yüksək nəticə göstərə bilər.



# "Sınaq imtahanları maksimum bal toplamağıma çox yardımçı oldu"

*Nurlan Əhmədov:* "Mən hazırlıq prosesi boyunca TQDK-nın təşkil etdiyi 5 sınaq imtahanında iştirak etmişəm"

Şirvan şəhəri 18 saylı orta məktəbin məzunu olan Nurlan Əhmədov rekord nəticə göstərərək Bakı Dövlət Universitetinin beynəlxalq iqtisadi münasibətlər fakültəsinə daxil olub, Prezident təqaüdünə layiq görülüb. Atası sürücü, anası isə müəllimədir. Gələcək iqtisadçı ilə maksimum nəticəyə necə nail olması barədə söhbətləşirik.

***- Mükəmməl bilik qazanmaq üçün dərsliklərdəki materiallar yetərlidirmi?***

- Bəli, yetərlidir. Çünki imtahan sualları elə orta məktəbin dərslik materialları əsasında tərtib edilir. İmtahan zamanı mən bunun şahidi oldum. Suallar bütünlüklə dərslik materiallarını əhatə edirdi. Məncə, tədris prosesinin yüksək səviyyədə aparıldığı ümümtəhsil məktəbini həqiqi əlaçı şagird kimi bitirən abituriyent qəbul imtahanında müvafiq balı toplaya bilər. Mən məktəbdə əlaçı şagird idim. Tədris olunan bütün fənləri oxuyur, bütün dərslərdə iştirak edirdim. Bunun nəticəsidir ki, Təhsil Nazirliyi tərəfindən keçirilən buraxılış imtahanında müvəffəqiyyət qazanıb fərqlənmə attestatı aldım. Qəbul imtahanında da yüksək nəticəni məhz dərslik materialları əsasında hazırlaşmağım sayəsində qazandım.

***- Nurlan, qəbula hazırlaşan abituriyentin sınaq imtahanlarında iştirakı vacibdirmi?***

- Mən hazırlıq prosesi boyunca Tələbə Qəbulu üzrə Dövlət Komissiyası tərəfindən təşkil edilən 5 sınaq imtahanında iştirak etmişəm. Sınaq imtahanları maksimum bal toplamağıma çox yardımçı oldu, mənə çox şey qazandırdı. Bu imtahanlarda müəyyən qədər təcrübə topladığım üçün qəbul imtahanı zamanı həyəcan, psixoloji gərginlik keçirmədim. Ümumiyyətlə, sınaqlar abituriyentin qəbul imtahanına hazırlığında çox mühüm rol oynayır.

***- Qəbul olduğunuz ixtisasın əhəmiyyətini necə izah edə bilərsiniz? Bu ixtisasa uyğun sahədə çalışmaqla cəmiyyətdə layiqli mövqe tutacağınıza inanırsınızmı?***

- Hazırda ölkəmizin iqtisadiyyatı sürətlə inkişaf edir. Azərbaycanın xarici ölkələrlə iqtisadi əlaqələri günü-gündən genişlənir. Bu səbəbdən də ölkədə yüksəkixtisaslı iqtisadçılara, o cümlədən beynəlxalq iqtisadi münasibətlər ixtisası üzrə kadrlara böyük ehtiyac var. Çalışacağam ki, seçdiyim sahə üzrə yüksəkixtisaslı mütəxəssis kimi yetişim, ölkəmizə fayda verim.

***- Qəbul prosesi, demək olar ki, hər il yeniliklərlə yadda qalır. Siz daha hansı yenilik və ya dəyişiklikləri görmək arzusundasınız?***

- Bu il ilk dəfə olaraq ali məktəblərə sənəd qəbulu prosesi internet vasitəsilə həyata keçirildi. Bu da abituriyentlərdən sənəd qəbulu işini xeyli asanlaşdırdı. Qəbul imtahanlarında test üsulunun tətbiqi bilikli, savadlı, hazırlıqlı abituriyentlərə müvafiq bal toplamağa imkan verir. Ancaq mən imtahan suallarının bir qədər çətinləşdirilməsini istərdim. Bir də nəzəri testlərə nisbətən şəkilli testlərə üstünlük verilsə daha yaxşı olar.

***- Qəbul imtahanlarına hazırlaşan abituriyentlərə nə məsləhət görərdiniz?***

- Qəbul imtahanlarına yuxarı siniflərdən yox, aşağı siniflərdən başlayaraq hazırlaşmaq lazımdır. 10-11-ci siniflərdə isə bu hazırlıq daha intensiv hal almalıdır. Ümumiyyətlə, ali məktəbə hazırlaşan abituriyentlərin dərsdən başqa digər işlərlə məşğul olmaları doğru deyil. Çünki əlavə məşğuliyyətlər fikrin cəmləşdirilməsinə mane olur. Hazırlıq prosesi zamanı məsuliyyətsizlik, dərslərə qarşı səhlənkarlıq abituriyenti tələbə olmaq şansından məhrum edə bilər.

# "İmtahana repetitor köməyindən istifadə etmədən fərdi qaydada hazırlaşmışam"



*Anar Kərəmov:* "Gələcək abituriyentlərə tövsiyə edirəm ki, düzgün istiqamət seçsinlər, qəbul imtahanına planlı surətdə hazırlaşsınlar"

Qəbul imtahanlarında rekord nəticə əldə edərək Tibb Universitetinin müalicə işi fakültəsinə daxil olan A.Kərəmov Quba Özəl Türk Liseyini bitirib. Prezident təqaüdçüsdür. Xaçmaz rayonunda anadan olan Anarın atası hal-hazırda işləmir, anası isə evdar qadındır.

***- Anar, qəbul imtahanında yüksək nəticə göstərəcəyinizə, biliyinizə arxayın idinizmi?***

- İmtahanda yüksək bal toplayıb Tibb Universitetinə qəbul olacağıma inanırdım. Ancaq ən yüksək nəticə göstərəcəyimə yüz faiz əmin deyildim. İmtahanöncəsi heç bir abituriyent deyə bilməz ki, o imtahanda rekord nəticə göstərəcək. Buna yalnız imtahan suallarını düzgün cavablandırdıqdan sonra əmin olmaq olar. Yüksək nəticə əldə etmək isə mənə elə də asan başa gəlməyib. Elmə, təhsilə hələ uşaq yaşlarımdan böyük maraq göstərmişəm. Bilik və intellektual səviyyəmə görə liseydə fərqlənən şagirdlərdən olmuşam. Liseyi də əla nəticələrlə bitirmişəm. İmtahana repetitor köməyindən istifadə etmədən fərdi qaydada hazırlaşmışam. Liseydə fənlər yüksək səviyyədə tədris olunduğundan əlavə repetitor yanına getməyə ehtiyac görmədim. Gecə-gündüz proqramlı şəkildə çalışdım. Hazırlıq prosesi zamanı dərslik materialları ilə yanaşı, Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının nəşr etdiyi əlavə materiallardan, test tapşırıqlarından istifadə etdim. "Abituriyent" jurnalını mütəmadi olaraq izlədim. Deyirlər, zəhmət çəkən bəhrəsini görər. Mən də əyani olaraq bunun şahidi oldum: arzusunda olduğum Tibb Universitetinin müalicə işi fakültəsinə yüksək nəticə ilə daxil oldum.

***- İxtisas seçimi zamanı hansı cəhətlərə üstünlük verdiniz? Bu məsələyə valideyn müdaxiləsinin müsbət və mənfi təsirləri barədə nə deyə bilərsiniz?***

- Qəbul olduğum universiteti və fakültəni ali təhsil almaq və ya nə olur-olsun hər hansı bir ixtisasa yiyələnmək xatirinə seçməmişəm. Həkim olmaq mənim uşaqlıq arzumdur. Mən belə bir qənaətdəyəm ki, peşəkar həkimə hər zaman ehtiyac var. Seçdiyim ixtisas üzrə mükəmməl təhsil aldıqdan sonra iş tapmaq da çətin olmaz. İxtisas seçiminə gəldikdə isə, qeyd edim ki, valideynlərim tərəfindən buna heç bir müdaxilə olmayıb. Mənə sərbəst seçim etməyə imkan yaradıblar. Seçimimi müsbət qarşılayaraq məni dəstəkləyiblər. Valideynlərimin ən böyük arzusu məni yüksək təhsilli, professional bir həkim kimi görməkdir. Fikrimcə, valideynlərin ixtisas seçimi zamanı uşaqlara müdaxilə etməsi düzgün deyil. Əksər hallarda yersiz müdaxilə uşağın ürəyincə olmayan ixtisası seçməsinə və təhsilini başa vurduqdan sonra ixtisasına uyğun olmayan başqa sahədə çalışmasına gətirib çıxarır.

***- İmtahanda sizi qane etməyən məqamlar oldumu?***

- Xeyir. İmtahan prosesi normal qaydada keçdi. Abituriyentlərin test suallarını cavablandırması üçün normal şərait yaradılmışdı. İmtahanın gedişində neqativ hallarla qarşılaşmadım. Abituriyentlər tərəfindən köçürmə hallarına da rast gəlmədim.

***- Gələcək karyeranız haqda nə düşünürsünüz?***

- Peşəkar həkim kimi formalaşdıqdan sonra yardıma möhtac olan insanlara hər zaman kömək etməyi, onların sağlamlığının keşiyində durmağı düşünürəm. Tibb Universitetinə qəbul olmağım da bu arzumu həyata keçirmək istəyimdən irəli gəlib. Təhsil müddətini başa vurduqdan sonra peşəkar bir həkim kimi ya doğulub boya başa çatdığım Xaçmaz rayonunda, ya da Bakıda fəaliyyət göstərən xəstəxanalardan birində çalışmağı planlaşdırıram. Əsas budur ki, mən öz vəzifə borcumu layiqincə yerinə yetirim.

***- Əlavə demək istədikləriniz, arzu və təklifləriniz?***

- Ali məktəblərə qəbul imtahanlarının test üsulu ilə keçirilməsi mənim çox ürəyimcədir. Sualların cavablarının variantlarla verilməsi isə abituriyentlərə düzgün cavabı tapmaqda çox yardımçı olur. Mən həm sənəd qəbulu prosesindən, həm də qəbul imtahanından çox razı qaldım. İmtahan sualları bütünlüklə dərslik materiallarını əhatə edirdi. Ancaq mən sualların bir qədər də çətinləşdirilməsini təklif edərdim. Sualların məntiqliliyi daha da artırılsa yaxşı olar. Gələcək abituriyentlərə tövsiyə edirəm ki, düzgün istiqamət seçsinlər, qəbul imtahanlarına planlı surətdə hazırlaşsınlar. Biliyi, yüksək hazırlığı olan abituriyentin imtahanda uğur qazanması şəksizdir.

***Müsahibələri apardı: Sevinc Qarayeva***

# I QRUP

## ÜZRƏ ƏN YÜKSƏK NƏTİCƏ GÖSTƏRMİŞ ABİTURİYENTLƏR



### BABAYEV RÜFƏT YAŞAR OĞLU

700.000 balla "Qafqaz" Universitetinin "Avtomatlaşdırılmış sistemlərin və hesablama texnikasının proqram təminatı" ixtisasına qəbul olub.
Bakı ş. Nizami rayonu 70 saylı orta məktəbin məzunudur.



### MƏMİYEV VÜSAL İSBAT OĞLU

695.000 balla Azərbaycan Dövlət Neft Akademiyasının "Mühəndis iqtisadiyyatı və idarəetmə" ixtisasına qəbul olub.
Yardımlı rayonu Kürəkçi kənd orta məktəbinin məzunudur.



### ABBASOV NİZAMİ AZƏR OĞLU

695.000 balla Azərbaycan Dövlət Neft Akademiyasının "Mühəndis iqtisadiyyatı və idarəetmə" ixtisasına qəbul olub.
Bakı ş. Səbayel rayonu 160 saylı orta məktəbin məzunudur.



### ƏLİYEV ORXAN ƏRŞAD OĞLU

690.000 balla Azərbaycan Dövlət Neft Akademiyasının "Mühəndis iqtisadiyyatı və idarəetmə" ixtisasına qəbul olub.
İsmayıllı rayonu Quşencə kənd orta məktəbinin məzunudur.



### İSMAYILZADƏ CAVİD RAMİZ OĞLU

690.000 balla Bakı Dövlət Universitetinin "Tətbiqi riyaziyyat" ixtisasına qəbul olub.
Bakı ş. Yasamal rayonu Fizika,riyaziyyat və informatika təmayüllü liseyin məzunudur.



### MƏMMƏDOV MURAD İSMAYIL OĞLU

690.000 balla MDU-nun Bakı filialına qəbul olub.
Bakı ş. Nizami rayonu 145 saylı orta məktəbin məzunudur.



### MƏMMƏDLİ ORXAN ELÇİN OĞLU

690.000 balla Azərbaycan Dövlət Neft Akademiyasının "Mühəndis iqtisadiyyatı və idarəetmə" ixtisasına qəbul olub.
Xətai rayonu 86 saylı orta məktəbin məzunudur.



### ABBASOVA İLAHƏ QOŞQAR QIZI

690.000 balla Bakı Dövlət Universitetinin "Tətbiqi riyaziyyat" ixtisasına qəbul olub.
Sumqayıt şəhəri Təbiət elmləri təmayüllü gimnaziyanın məzunudur.



### HƏMİDOV MÜŞFİQ ALİK OĞLU

685.000 balla Azərbaycan Dövlət Neft Akademiyasının "Mühəndis iqtisadiyyatı və idarəetmə" ixtisasına qəbul olub.
Siyəzən rayonu M.Müşfiq adına 2 saylı şəhər orta məktəbinin məzunudur.



### NAMAZOV RÜFƏT ASİF OĞLU

685.000 balla Azərbaycan Dövlət Neft Akademiyasının "Mühəndis iqtisadiyyatı və idarəetmə" ixtisasına qəbul olub.
Şirvan şəhəri 2 saylı şəhər orta məktəbinin məzunudur.



### BABAYEV RAMİL SOLTAN OĞLU

685.000 balla Azərbaycan Dövlət Neft Akademiyasının “Mühəndis iqtisadiyyatı və idarəetmə” ixtisasına qəbul olub.
Bakı ş. Qaradağ rayonu E.Həsənov adına 139 saylı orta məktəbin məzunudur.



### TALIBOV ELMAR ETİBAR OĞLU

685.000 balla Azərbaycan Dövlət Neft Akademiyasının “Faydalı qazıntı yataqlarının işlənməsi” ixtisasına qəbul olub.
Şəki rayonu Şəki Azərbaycan-Türk özəl liseyinin məzunudur.



### ƏMMAYEV TƏBRİZ BİLAL OĞLU

685.000 balla Azərbaycan Dövlət Neft Akademiyasının “Mühəndis iqtisadiyyatı və idarəetmə” ixtisasına qəbul olub.
Bakı ş. Nərimanov rayonu “Ankara Məktəbi” məktəb-liseyinin (əvvəlki 77 saylı orta məktəb) məzunudur.



### İSMAYILOV MƏHƏRRƏM MƏHƏMMƏD OĞLU

685.000 balla Azərbaycan Dövlət Neft Akademiyasının “Faydalı qazıntı yataqlarının işlənməsi” ixtisasına qəbul olub.
Bakı ş. Yasamal rayonu Türk liseyinin (BDU-nun nəzdində, təsisçi Türkiyə Dəyanət Vəqfi) məzunudur.



### QULİYEV XƏYYAM MÜBARİZ OĞLU

680.000 balla “Qafqaz” Universitetinin “Avtomatlaşdırılmış sistemlərin və hesablama texnikasının proqram təminatı” ixtisasına qəbul olub.
Sumqayıt şəhəri 17 saylı orta məktəbin məzunudur.



### HƏSƏNOVA GÜLTƏKİN AKİF QIZI

680.000 balla Bakı Dövlət Universitetinin “Tətbiqi riyaziyyat” ixtisasına qəbul olub.
Bərdə rayonu 6 saylı şəhər orta məktəbinin məzunudur.



### HƏSƏNLİ CEYHUN SABİR OĞLU

680.000 balla “Qafqaz” Universitetinin “Avtomatlaşdırılmış sistemlərin və hesablama texnikasının proqram təminatı” ixtisasına qəbul olub.
Bakı ş. Yasamal rayonu Fizika,riyaziyyat və informatika təmayüllü liseyin məzunudur.



### BEYDULLAYEV RAHİB RAMİZ OĞLU

680.000 balla Azərbaycan Dövlət Neft Akademiyasının “Mühəndis iqtisadiyyatı və idarəetmə” ixtisasına qəbul olub.
Bakı ş. Nizami rayonu 289 saylı orta məktəb - “Zəngi” liseyinin məzunudur.



### ABDULLAYEV VÜQAR SABİR OĞLU

680.000 balla Azərbaycan Dövlət Neft Akademiyasının “İnformatika və hesablama texnikası” ixtisasına qəbul olub.
Bakı ş. Nizami rayonu “Dədə Qorqud” Özəl Türk Kompyuter liseyinin məzunudur.



### ŞÜKÜROVA GÜLƏR ASİF QIZI

680.000 balla “Qafqaz” Universitetinin “Avtomatlaşdırılmış sistemlərin və hesablama texnikasının proqram təminatı” ixtisasına qəbul olub.
Xocalı rayonu Meşəli kənd orta məktəbinin (Hacıkənddə yerləşir) məzunudur.



### QASIMOV KAMRAN NİZAMİ OĞLU

679.000 balla Azərbaycan Dövlət Neft Akademiyasının “Mühəndis iqtisadiyyatı və idarəetmə” ixtisasına qəbul olub.
Siyəzən rayonu M.Müşfiq adına 2 saylı şəhər orta məktəbinin məzunudur.



### İBRAHİMOVA MEHRİBAN ƏLƏKBƏR QIZI

675.000 balla Azərbaycan Dövlət Neft Akademiyasının “Mühəndis iqtisadiyyatı və idarəetmə” ixtisasına qəbul olub.
Bakı ş. Nəsimi rayonu 240 saylı orta məktəbin məzunudur.

# I QRUP
## ÜZRƏ ƏN YÜKSƏK NƏTİCƏ GÖSTƏRMİŞ ABİTURİYENTLƏR





### ƏLİYEV ZÜLFÜQAR TOFİQ OĞLU

675.000 balla Bakı Dövlət Universitetinin "Tətbiqi riyaziyyat" ixtisasına qəbul olub.
Bakı ş. Sabunçu rayonu 96 saylı orta məktəbin məzunudur.



### ABDULLAYEV ELÇİN ƏLƏKBƏR OĞLU

675.000 balla Azərbaycan Memarlıq və İnşaat Universitetinin "Nəqliyyat tikintisi" ixtisasına qəbul olub.
Kəlbəcər rayonu 17 saylı orta məktəbin məzunudur.



### ŞÜKÜRZADƏ AZƏR MƏJLUM OĞLU

675.000 balla "Qafqaz" Universitetinin "Avtomatlaşdırılmış sistemlərin və hesablama texnikasının proqram təminatı" ixtisasına qəbul olub.
Şəki rayonu Şəki Azərbaycan-Türk özəl liseyinin məzunudur.



### ZODOROVA AYTƏN MƏHƏMMƏD QIZI

672.000 balla Bakı Dövlət Universitetinin "Tətbiqi riyaziyyat" ixtisasına qəbul olub.
Balakən rayonu Katex kənd 1 saylı orta məktəbinin məzunudur.



### SALMANLI FARİS GÜNDÜZ OĞLU

672.000 balla MDU-nun Bakı filialına qəbul olub.
Bakı ş. Nəsimi rayonu 211 saylı orta məktəbin məzunudur.



### CƏHRƏMİ ŞƏHRİYAR BƏYLƏR OĞLU

671.000 balla Bakı Dövlət Universitetinin "İnformatika" ixtisasına qəbul olub.
Bakı ş. Suraxanı rayonu 104 saylı orta məktəbin məzunudur.



### BALAYEV AQİL RAQUB OĞLU

670.000 balla Azərbaycan Dövlət Neft Akademiyasının "Mühəndis iqtisadiyyatı və idarəetmə" ixtisasına qəbul olub.
İsmayıllı rayonu 1 saylı şəhər orta məktəbinin məzunudur.



### HƏSƏNOV CƏSUR MÜLKƏDAR OĞLU

670.000 balla "Qafqaz" Universitetinin "Avtomatlaşdırılmış sistemlərin və hesablama texnikasının proqram təminatı" ixtisasına qəbul olub.
Şəki rayonu 3 saylı şəhər orta məktəbinin məzunudur.



### ƏLİZADƏ ELDAR ƏLİ OĞLU

670.000 balla MDU-nun Bakı filialına qəbul olub.
Bakı ş. Xətai rayonu 287 saylı "Zəkalar" liseyinin məzunudur.



### EYUBOV KAMRAN AYAZ OĞLU

670.000 balla Bakı Dövlət Universitetinin "İnformatika" ixtisasına qəbul olub.
Bakı ş. Xətai rayonu Heydər Əliyev adına liseyin məzunudur.



### ALLAHVERDİYEV AMİL CƏMALƏDDİN OĞLU

670.000 balla Azərbaycan Dövlət Neft Akademiyasının "Faydalı qazıntı yataqlarının işlənməsi" ixtisasına qəbul olub.
Naxçıvan şəhəri Naxçıvan türk liseyinin məzunudur.



### MƏMMƏDOVA AYGÜL NƏSİR QIZI

670.000 balla Bakı Dövlət Universitetinin "Tətbiqi riyaziyyat" ixtisasına qəbul olub.
Naxçıvan şəhəri M.T.Sidqi adına 4 saylı orta məktəbin məzunudur.



## ƏZİZLİ SEVİNC MƏHƏMMƏD QIZI

669.000 balla Bakı Dövlət Universitetinin "Tətbiqi riyaziyyat" ixtisasına qəbul olub.
Qəbələ rayonu Vəndam kənd 3 saylı orta məktəbinin məzunudur.



## BƏDƏLOV TURAL NİZAMİ OĞLU

667.000 balla Bakı Dövlət Universitetinin "Tətbiqi riyaziyyat" ixtisasına qəbul olub.
Quba rayonu 4 saylı şəhər orta məktəbinin məzunudur.



## XALIQOV ƏLÖVSƏT NƏSRƏDDİN OĞLU

665.000 balla Azərbaycan Dövlət Neft Akademiyasının "Mühəndis iqtisadiyyatı və idarəetmə" ixtisasına qəbul olub.
İsmayıllı rayonu 1 saylı şəhər orta məktəbinin məzunudur.



## YAQUBOV ARAZ ƏLİ OĞLU

665.000 balla Bakı Dövlət Universitetinin "Tətbiqi riyaziyyat" ixtisasına qəbul olub.
Bakı ş. Yasamal rayonu Fizika,riyaziyyat və informatika təmayüllü liseyin məzunudur.



## QASIMZADƏ EMİL EYLER OĞLU

665.000 balla Azərbaycan Dövlət Neft Akademiyasının "Mühəndis iqtisadiyyatı və idarəetmə" ixtisasına qəbul olub.
Bakı ş. Nizami rayonu 109 saylı orta məktəbin məzunudur.



## HƏSƏNOVA GÜLNAZ ƏRŞAD QIZI

664.000 balla Bakı Dövlət Universitetinin "Tətbiqi riyaziyyat" ixtisasına qəbul olub.
Saatlı rayonu M.Əzizbəyov adına 2 saylı şəhər orta məktəbinin məzunudur.



## RƏSULOV VALEH RÖVŞƏN OĞLU

669.000 balla Azərbaycan Dövlət Neft Akademiyasının "Mühəndis iqtisadiyyatı və idarəetmə" ixtisasına qəbul olub.
Bakı ş. Qaradağ rayonu E.Şirəliyev adına 274 saylı orta məktəbin məzunudur.



## SÜLEYMANOV HƏBİB NİZAMİ OĞLU

667.000 balla "Qafqaz" Universitetinin "Avtomatlaşdırılmış sistemlərin və hesablama texnikasının proqram təminatı" ixtisasına qəbul olub.
Bakı Özəl türk liseyinin Ağdaş filialının məzunudur.



## İBRAHİMZADƏ FUAD SABİR OĞLU

665.000 balla Azərbaycan Dövlət Neft Akademiyasının "Mühəndis iqtisadiyyatı və idarəetmə" ixtisasına qəbul olub.
Bakı ş. Nizami rayonu 210 saylı orta məktəbin məzunudur.



## CABBARLI PƏRVİN ƏYYUB QIZI

665.000 balla Bakı Dövlət Universitetinin "Tətbiqi riyaziyyat" ixtisasına qəbul olub.
Bakı ş. Nizami rayonu 272 saylı orta məktəbin məzunudur.



## MƏHƏROV KAMRAN İBRAHİM OĞLU

665.000 balla "Qafqaz" Universitetinin "Avtomatlaşdırılmış sistemlərin və hesablama texnikasının proqram təminatı" ixtisasına qəbul olub.
Bakı ş. Nizami rayonu 289 saylı orta məktəb - "Zəngi" liseyinin məzunudur.



## SÜLEYMANOV ELDAR ŞAHİN OĞLU

663.000 balla Azərbaycan Dövlət Neft Akademiyasının "Faydalı qazıntı yataqlarının işlənməsi" ixtisasına qəbul olub.
Bakı ş. Səbayel rayonu 239 saylı orta məktəbin məzunudur.



## HÜSEYNOV ŞƏHRİYAR DAVUD OĞLU

662.000 balla Azərbaycan Dövlət Neft Akademiyasının "Faydalı qazıntı yataqlarının işlənməsi" ixtisasına qəbul olub.
Bakı ş. Xətai rayonu 64 saylı orta məktəbin məzunudur.



## QASIMOV NAİB ELŞƏN OĞLU

660.000 balla Bakı Dövlət Universitetinin "Tətbiqi riyaziyyat" ixtisasına qəbul olub.
Quba rayonu Bakı Özəl türk liseyinin Quba filialının məzunudur.



## ƏSKƏROVA SƏBİNƏ SEYİD TAHİR QIZI

660.000 balla Bakı Dövlət Universitetinin "Tətbiqi riyaziyyat" ixtisasına qəbul olub.
Bakı ş. Suraxanı rayonu 279 saylı orta məktəbin məzunudur.



## HEYDƏROVA AYSEL HAFİZ QIZI

660.000 balla Azərbaycan Dövlət Neft Akademiyasının "Mühəndis iqtisadiyyatı və idarəetmə" ixtisasına qəbul olub.
Bakı ş. Səbayel rayonu 134 saylı orta məktəbin məzunudur.



## QULUZADƏ SEVİNC SALEH QIZI

660.000 balla Bakı Dövlət Universitetinin "Tətbiqi riyaziyyat" ixtisasına qəbul olub.
Bakı ş. Qaradağ rayonu Neftçi Qurban adına 288 saylı orta məktəbin məzunudur.



## ƏLİZADƏ TOĞRUL BƏYLƏR OĞLU

660.000 balla Azərbaycan Dövlət Neft Akademiyasının "Mühəndis iqtisadiyyatı və idarəetmə" ixtisasına qəbul olub.
Bakı ş. Səbayel rayonu 7 saylı orta məktəbin məzunudur.



## BABAYEV HÜSEYN RASİM OĞLU

660.000 balla Azərbaycan Dövlət Neft Akademiyasının "Mühəndis iqtisadiyyatı və idarəetmə" ixtisasına qəbul olub.
Gəncə şəhəri Gəncə-Azərbaycan türk özəl liseyinin məzunudur.



## HƏSƏNOVA AYTƏN HƏSƏN QIZI

659.000 balla Bakı Dövlət Universitetinin "Tətbiqi riyaziyyat" ixtisasına qəbul olub.
Bakı ş. Binəqədi rayonu 244 saylı orta məktəbin məzunudur.



## BAYANDUROV RƏŞAD HÜSEYN OĞLU

659.000 balla Azərbaycan Dövlət Neft Akademiyasının "Faydalı qazıntı yataqlarının işlənməsi" ixtisasına qəbul olub.
Bakı ş. Nərimanov rayonu 178 saylı orta məktəbin məzunudur.



## MAHMUDOVA GÜNAY HABİL QIZI

658.000 balla Bakı Dövlət Universitetinin "Tətbiqi riyaziyyat" ixtisasına qəbul olub.
Masallı rayonu Digah kənd orta məktəbinin məzunudur.



## CABBAROVA SİMUZƏR İMRAN QIZI

658.000 balla Bakı Dövlət Universitetinin "Tətbiqi riyaziyyat" ixtisasına qəbul olub.
Şəki rayonu 11 saylı şəhər orta məktəbinin məzunudur.



## MƏMMƏDOVA MEYRƏNSƏ AZAD QIZI

656.000 balla Bakı Dövlət Universitetinin "Riyaziyyat" ixtisasına qəbul olub.
Salyan rayonu 1 saylı şəhər orta məktəbinin məzunudur.



### ASLANOVA GÜNEL NATİQ QIZI

656.000 balla Bakı Dövlət Universitetinin "Tətbiqi riyaziyyat" ixtisasına qəbul olub.
Bakı ş. Səbayel rayonu 236 saylı orta məktəbin məzunudur.



### HƏMZƏYEV ÜLVÜ AĞAQULU OĞLU

655.000 balla Azərbaycan Dövlət Neft Akademiyasının "Mühəndis iqtisadiyyatı və idarəetmə" ixtisasına qəbul olub.
Salyan rayonu 4 saylı şəhər orta məktəbinin məzunudur.



### MƏMMƏDLİ MƏLƏK SALEH QIZI

655.000 balla Bakı Dövlət Universitetinin "İnformatika" ixtisasına qəbul olub.
Bakı Slavyan Universitetinin humanitar liseyinin məzunudur.



### MEHRƏLİYEVA NİGAR VƏLİXAN QIZI

655.000 balla MDU-nun Bakı filialına qəbul olub.
Bakı ş. Nərimanov rayonu Bağça-məktəb-lisey kompleksinin məzunudur.



### RƏHİMOV FƏRİD ADİL OĞLU

655.000 balla Azərbaycan Dövlət Neft Akademiyasının "Avtomatlaşdırma və informasiya texnikası" (TEMPUS proqramı üzrə) ixtisasına qəbul olub.
Bakı ş. Yasamal rayonu Fizika,riyaziyyat və informatika təmayüllü liseyin məzunudur.



### RƏHİMOV RƏHİM TOFİQ OĞLU

655.000 balla "Qafqaz" Universitetinin "Avtomatlaşdırılmış sistemlərin və hesablama texnikasının proqram təminatı" ixtisasına qəbul olub.
Naxçıvan şəhəri Naxçıvan türk liseyinin məzunudur.



### SADIQOV TÜRKƏM OQTAY OĞLU

655.000 balla Bakı Dövlət Universitetinin "İnformatika" ixtisasına qəbul olub.
Bakı ş. Nərimanov rayonu Bağça-məktəb-lisey kompleksinin məzunudur.



### ƏLİYEV SAHİL RƏŞİD OĞLU

655.000 balla Azərbaycan Dövlət Neft Akademiyasının "Mühəndis iqtisadiyyatı və idarəetmə" ixtisasına qəbul olub.
Ucar rayonu 6 saylı şəhər orta məktəbinin məzunudur.



### HEYDƏROV NAMİQ MEHMAN OĞLU

655.000 balla Milli Aviasiya Akademiyasının "Hava gəmilərinin uçuş istismarı" ixtisasına qəbul olub.
Bakı ş. Nizami rayonu 214 saylı orta məktəbin məzunudur.



### MİKAYILZADƏ ANAR ƏLİ OĞLU

653.000 balla "Qafqaz" Universitetinin "Avtomatlaşdırılmış sistemlərin və hesablama texnikasının proqram təminatı" ixtisasına qəbul olub.
Zərdab rayonu H.Zərdabi adına 1 saylı şəhər orta məktəbinin məzunudur.



### EYYUBOV ZİYADXAN YAVUZ OĞLU

652.000 balla "Qafqaz" Universitetinin "Avtomatlaşdırılmış sistemlərin və hesablama texnikasının proqram təminatı" ixtisasına qəbul olub.
Şamaxı rayonu Sabir qəsəbə orta məktəbinin məzunudur.



### ƏHMƏDOVA GÜLNAR ƏLZAMİN QIZI

652.000 balla Bakı Dövlət Universitetinin "Tətbiqi riyaziyyat" ixtisasına qəbul olub.
Saatlı rayonu Xanlarkənd kənd orta məktəbinin məzunudur.



## YOLÇUYEV ORXAN YUSİF OĞLU

651.000 balla "Qafqaz" Universitetinin "Avtomatlaşdırılmış sistemlərin və hesablama texnikasının proqram təminatı" ixtisasına qəbul olub.
Qax rayonu 2 saylı şəhər orta məktəbinin məzunudur.



## İBİŞOV SƏRVAN QƏHRƏMAN OĞLU

651.000 balla Bakı Dövlət Universitetinin "Tətbiqi riyaziyyat" ixtisasına qəbul olub.
Bakı ş. Səbayel rayonu 162 saylı orta məktəbin məzunudur.



## ƏHMƏDOVA SƏİDƏ SABİR QIZI

651.000 balla MDU-nun Bakı filialına qəbul olub.
Bakı ş. Nərimanov rayonu Bağça-məktəb-lisey kompleksinin məzunudur.



## NƏBİYEV TURAL PƏNAH OĞLU

650.000 balla Azərbaycan Dövlət Neft Akademiyasının "Faydalı qazıntı yataqlarının işlənməsi" ixtisasına qəbul olub.
Cəbrayıl rayonu 5 saylı orta məktəbin məzunudur.



## MUSTAFAYEV RƏHMAN ELMAN OĞLU

650.000 balla Azərbaycan Dövlət Neft Akademiyasının "Faydalı qazıntı yataqlarının işlənməsi" ixtisasına qəbul olub.
Sumqayıt şəhəri 11 saylı orta məktəbin məzunudur.



## KƏRİMLİ SAMİR ƏLİPƏNAH OĞLU

650.000 balla Bakı Dövlət Universitetinin "Tətbiqi riyaziyyat" ixtisasına qəbul olub.
Masallı rayonu Həsənəküçə kənd orta məktəbinin məzunudur.



## ABDURƏHİMLİ CƏLİL SEYRAN OĞLU

650.000 balla Azərbaycan Dövlət Neft Akademiyasının "Faydalı qazıntı yataqlarının işlənməsi" ixtisasına qəbul olub.
Şəki rayonu 5 saylı şəhər orta məktəbinin məzunudur.



## CƏBİYEV FƏRHAD ELÇİN OĞLU

650.000 balla "Qafqaz" Universitetinin "Avtomatlaşdırılmış sistemlərin və hesablama texnikasının proqram təminatı" ixtisasına qəbul olub.
Bakı ş. Xətai rayonu 48 saylı orta məktəbin məzunudur.



## QOCAYEVA NİGAR AKİF QIZI

650.000 balla Bakı Dövlət Universitetinin "Tətbiqi riyaziyyat" ixtisasına qəbul olub.
Bakı ş. Nizami rayonu 214 saylı orta məktəbin məzunudur.



## ƏHƏDOV HÜSEYNƏLİ FEYZULLA OĞLU

650.000 balla Azərbaycan Dövlət Neft Akademiyasının "Mühəndis iqtisadiyyatı və idarəetmə" ixtisasına qəbul olub.
Bakı ş. Səbayel rayonu 134 saylı orta məktəbin məzunudur.



## RƏCƏBLİ NURAN FAİQ OĞLU

650.000 balla Azərbaycan Dövlət Neft Akademiyasının "Faydalı qazıntı yataqlarının işlənməsi" ixtisasına qəbul olub.
Naxçıvan şəhəri Naxçıvan türk liseyinin məzunudur.



## ORUCOVA ELNARƏ HƏSƏN QIZI

649.000 balla Bakı Dövlət Universitetinin "Tətbiqi riyaziyyat" ixtisasına qəbul olub.
Bakı ş. Binəqədi rayonu 244 saylı orta məktəbin məzunudur.



## BAYRAMOVA TÜRKAN NAZİM QIZI

649.000 balla Bakı Dövlət Universitetinin "Tətbiqi riyaziyyat" ixtisasına qəbul olub.
Bakı ş. Xətai rayonu 29 saylı orta məktəbin məzunudur.



## VƏLİZADƏ ƏLƏKBƏR TAĞI OĞLU

647.000 balla "Qafqaz" Universitetinin "Avtomatlaşdırılmış sistemlərin və hesablama texnikasının proqram təminatı" ixtisasına qəbul olub.
Sumqayıt şəhəri 38 saylı orta məktəbin məzunudur.



## ALƏMMƏDLİ CAVANŞİR RAMAZAN OĞLU

647.000 balla "Qafqaz" Universitetinin "Avtomatlaşdırılmış sistemlərin və hesablama texnikasının proqram təminatı" ixtisasına qəbul olub.
Bakı Özəl türk liseyinin Ağdaş filialının məzunudur.



## SÜLEYMANLI BÜLLURƏ İSMAYIL QIZI

647.000 balla Bakı Dövlət Universitetinin "Tətbiqi riyaziyyat" ixtisasına qəbul olub.
Bakı ş. Binəqədi rayonu 3 saylı orta məktəbin məzunudur.



## HÜSEYNOV ORXAN AKİF OĞLU

645.000 balla Bakı Dövlət Universitetinin "İnformatika" ixtisasına qəbul olub.
Xızı rayonu C.Novruz adına 1 saylı orta məktəbin məzunudur.



## FƏRHADOV TURAL SƏRHAD OĞLU

645.000 balla Bakı Dövlət Universitetinin "İnformatika" ixtisasına qəbul olub.
Bakı ş. Əzizbəyov rayonu 92 saylı orta məktəbin məzunudur.



## HÜSEYNOVA KÖNÜL ÇİNGİZ QIZI

643.000 balla Bakı Dövlət Universitetinin "Riyaziyyat" ixtisasına qəbul olub.
Salyan rayonu 4 saylı şəhər orta məktəbinin məzunudur.



## CƏFƏROV NİCAT XALƏDDİN OĞLU

643.000 balla Azərbaycan Dövlət Neft Akademiyasının "Neft-qaz və dağ-mədən istehsalatının fiziki prosesləri" ixtisasına qəbul olub.
Goranboy rayonu Safıkürd kənd orta məktəbinin məzunudur.



## MƏMMƏDRƏHİMLİ ADİKƏ İFTİXAR QIZI

642.000 balla Bakı Dövlət Universitetinin "Tətbiqi riyaziyyat" ixtisasına qəbul olub.
Şəki rayonu 5 saylı şəhər orta məktəbinin məzunudur.



## NOVRUZOV PƏRVİZ YAQUB OĞLU

642.000 balla Azərbaycan Dövlət Neft Akademiyasının "Faydalı qazıntı yataqlarının işlənməsi" ixtisasına qəbul olub.
Bakı ş. Nizami rayonu 214 saylı orta məktəbin məzunudur.



## ƏZİMZADƏ SƏBUHİ ELMAN OĞLU

642.000 balla MDU-nun Bakı filialına qəbul olub.
Abşeron rayonu Xırdalan şəhər 5 saylı orta məktəbinin məzunudur.



## SOLTANZADƏ HİDAYƏT İSLAM OĞLU

640.000 balla "Qafqaz" Universitetinin "Avtomatlaşdırılmış sistemlərin və hesablama texnikasının proqram təminatı" ixtisasına qəbul olub.
Oğuz rayonu 2 saylı şəhər orta məktəbinin məzunudur.



## YOLÇUYEV NİHAD QÜDRƏT OĞLU

640.000 balla Bakı Dövlət Universitetinin "Tətbiqi riyaziyyat" ixtisasına qəbul olub.
Bakı ş. Nizami rayonu 145 saylı orta məktəbin məzunudur.



## HƏSƏNOV ŞAMO XANIŞ OĞLU

640.000 balla Azərbaycan Dövlət Neft Akademiyasının "Mühəndis iqtisadiyyatı və idarəetmə" ixtisasına qəbul olub.
Bakı ş. Nizami rayonu 289 saylı orta məktəb - "Zəngi" liseyinin məzunudur.



## HÜMBƏTLİ TURAN BƏHMƏN OĞLU

640.000 balla Bakı Dövlət Universitetinin "Tətbiqi riyaziyyat" ixtisasına qəbul olub.
Bakı ş. Yasamal rayonu Fizika,riyaziyyat və informatika təmayüllü liseyin məzunudur.



## ŞƏFİZADƏ ŞƏFİ MUSTAFA OĞLU

640.000 balla Azərbaycan Dövlət Neft Akademiyasının "Avtomatlaşdırma və informasiya texnikası" (TEMPUS proqramı üzrə) ixtisasına qəbul olub.
Bakı ş. Sabunçu rayonu 96 saylı orta məktəbin məzunudur.



## ZEYNALLI ƏLİ İLYAS OĞLU

